AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# ŞƏRQŞÜNASLIQ

JURNALI

---

JOURNAL OF

# ORIENTAL STUDIES

OF BAKU STATE UNIVERSITY

1/2025

**E-ISSN 3134-7231**

**Bakı – 2025**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*21 oktyabr 2021-ci il tarixində qeydiyyatdan keçmişdir*
*(Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi 4361)*

*Baş redaktor:*
***akademik* Rafael Hüseynov**

## Redaksiya heyəti:

**BELLİNGERİ CAMPİERO**
Professor; Venesiya Ka Foskari Universiteti, İtaliya
**CAVADİ HƏSƏN**
Professor; Kaliforniya Universiteti, ABŞ
**CƏLİLOV OQTAY**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**ÇALİSOVA NATALİYA**
Filologiya elmləri doktoru, professor;
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya
**EKİCİ METİN**
Professor; Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu, Türkiyə
**FİLİPPOV ALEKSANDR**
Filologiya elmləri doktoru, professor;
Sankt-Peterburq Dövlət Universiteti, Rusiya
**XƏNDAN AYDAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**KAZIMOV MEHDİ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QARADAĞLI VÜQAR**
Filologiya elmləri doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QASIMOVA AİDA**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**LO MBAYE**
Professor; Dyuk Universiteti, ABŞ
**MANSOOR ASMA**
Professor; İslamabad Beynəlxalq İslam Universiteti, Pakistan
**MƏMMƏDOVA ƏSMƏTXANIM**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**NİKOLAYEVA MARİYA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Rusiya Elmlər Akademiyası, Rusiya
**OÇİLOV OZODCON**
Filologiya elmləri üzrə fəlsəfə doktoru;
Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan
**RƏSULOV ƏSGƏR**
Filologiya elmləri doktoru, professor;
Milli Arxiv İdarəsi, Azərbaycan
**RÜSTƏMOV RÜFƏT**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**SUFİYEV ŞODİMAXAMMAD**
Filologiya elmləri doktoru, professor;
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
**TOBİA STEFAN**
Professor; Strasburq Universiteti, Fransa

Bakı Dövlət Universitetinin **ŞƏRQŞÜNASLIQ** jurnalı/Journal of **ORIENTAL STUDIES** of Baku State University, № 1, 2025. – 176 səh. Bakı, BDU, 2025.

© Bakı Dövlət Universiteti, 2025

## ƏDƏBİYYATŞÜNASLIQ

*Aida QASIMOVA*
**“BAXIŞLAR ONU GÖRƏ BİLMƏZ”: KLASSİK AZƏRBAYCAN POEZİYASINDA GÖZ VƏSFİNİN NƏZƏRİ-ESTETİK ÇALARLARI**
“No Vision Can Encompass Him”: The Theoretical and Aesthetic Aspects Of Eye Description In Classical Azerbaijani Poetry **11**
https://doi.org/10.30546/209805.2025.101.2.1051

*Aydan XƏNDAN*
**XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRK ƏDƏBİYYATINDA KÖHNƏDƏN YENİYƏ KEÇİD VƏ ƏDƏBİ CƏRƏYANLAR**
Transition From Old To New And Literary Currents In Turkish Literature At The End Of The 19th Century And Early 20th Century **25**
https://doi.org/10.30546/209805.2025.101.2.1056

*Nigar İSMAYILZADƏ*
**XV ƏSR TƏSƏVVÜF POEZİYASINDA ZÜMRƏ ƏDƏBİYYATI VƏ İLAHİ EŞQ**
Zumra Literature And Divine Love In 15th-Century Sufi Poetry **38**
https://doi.org/10.30546/209805.2025.101.2.1015

*Rafael HÜSEYNOV*
**SHAHRASHUB IN EASTERN POETRY AND NATIONAL SELF-EXPRESSION IN URDU SHAHRASHUBS**
Şərq şeirində şəhraşub və urdu şəhraşublarında milli özünüifadə **45**
https://doi.org/10.30546/209805.2025.101.2.1064

*Şəhla ABDULLAYEVA*
**SÖZLƏ SEYR EDƏN RUH: ŞEYX FƏRİDƏDDİN ƏTTAR NİŞAPURİ**
A Soul Journeying Through The Word: Farid Al-Din Attar Of Nishapur **69**
https://doi.org/10.30546/209805.2025.101.2.1029

## DİLÇİLİK

*Əsmətxanım MƏMMƏDOVA*
**FARS DİLİNDƏ KİPLƏŞƏN SAMİT BİRLƏŞMƏLƏRİNİN FONETİK SƏCİYYƏSİ (NİZAMİ GƏNCƏVİNİN “XƏMSƏ”Sİ ƏSASINDA)**
Phonetic Characteristics Of Consonant Clusters In Persian (Based On Nizami Ganjavi`s “Khamsa”) **81**
https://doi.org/10.30546/209805.2025.101.2.1046

*Heybət HEYBƏTOV*
**ŞAHİD BEYTLƏRİN FİLOLOJİ ƏHƏMİYYƏTİ**
The Philological Significance Of Shahid Bayts **95**
https://doi.org/10.30546/209805.2025.101.2.1035

## TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ ÇEVİRMƏLƏR

*Əsgər RƏSULOV*
**TÜRK DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏDƏ YALANÇI EKVİVALENT PROBLEMİ**
False Equivalents Problem In The Turkish-Azerbaijani Translation **109**
https://doi.org/10.30546/209805.2025.101.2.1075

*Eldost İBRAHİMOV*
**RƏQƏMSAL TEXNOLOGİYA DÖVRÜNDƏ TƏRCÜMƏŞÜNASLIQDA SÜNİ İNTELLEKT VƏ İNSAN AMİLİ**
Artificial Intelligence And Human Factor In Translation In The Era Of Digital Technology **122**
https://doi.org/10.30546/209805.2025.101.2.1012

*Gülnar ƏQİQ CƏFƏRZADƏ*
**ŞEYX FƏRİDƏDDİN ƏTTAR NİŞAPURİ. "ŞEYX SƏNAN" HEKAYƏTİ**
Sheikh Faridaddin Attar Nishapuri. The Story Of "Sheikh Sanan" **129**
https://doi.org/10.30546/209805.2025.101.2.1001

## TƏQDİMATLAR, RƏYLƏR, DƏYƏRLƏNDİRMƏLƏR

*Kəmalə NURİYEVA*
**ABBASQULU AĞA BAKIXANOV. RİYAZÜL-QÜDS (ilk tam nəşri haqqında)**
Abbasqulu Agha Bakikhanov. Riyāż Al-Quds (About The First Complete Edition) **151**
https://doi.org/10.30546/209805.2025.101.2.1058

*Rafael HÜSEYNOV*
**ƏRƏB ƏDƏBİYYATINDAKI SİRƏLƏRƏ AZƏRBAYCAN ŞƏRQŞÜNASLIĞINDAKI İLK KOMPLEKS YANAŞMADA MÜSBƏT VƏ DƏQİQLƏŞDİRİLMƏLİ MƏQAMLAR**
Positive Points To Be Clarified In The First Comprehensive Approach To Siras In Arabic Literature Within Azerbaijani Oriental Studies **155**
https://doi.org/10.30546/209805.2025.101.2.1023

**APA7 qaynaq göstərmə təlimatı** **172**

**Nəşrə dair tələblər** **174**

**Publication requirements** **175**

# ƏDƏBİYYATŞÜNASLIQ



**UOT** **821.512.161**
**DOI** https://doi.org/10.30546/209805.2025.101.2.1056

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRK ƏDƏBİYYATINDA KÖHNƏDƏN YENİYƏ KEÇİD VƏ ƏDƏBİ CƏRƏYANLAR

**AYDAN XƏNDAN***

**Xülasə**

*Məqalədə təhlil edilən dövrün tarixi-xronoloji sərhədləri min ildən artıq yaşı olan yazılı türk ədəbiyyatının təxminən otuz-qırx illik bir zaman dilimini əhatə edir. İlk baxışda xeyli qısa görünən bu dövr bütövlükdə Türkiyə ictimai-siyasi həyatının ən mürəkkəb və taleyüklü hadisələrlə dolu mərhələsi sayıldığı kimi, türk ədəbiyyatı, o cümlədən, türk poeziyası baxımından da bədii metod, ədəbi cərəyan, bədii üslub, ədəbi məktəb, təmayül və qruplarla son dərəcə zəngin bir mərhələsidir. Təsadüfi deyil ki, bu zaman kəsiyi türk nəsri və poeziyasının köhnədən yeniyə keçid mərhələsi hesab edilməklə yanaşı, həm də bütövlükdə milli ədəbiyyatın formalaşdığı dövr sayılır. Araşdırmalar göstərir ki, bu dövr ümumən türk poeziyasında mənşə və mənbələr, daxili resurslar və kənar təsirlər, ədəbi cərəyan, təmayül, qrup və məktəblər arasında əlaqələr baxımından da həm bir-birindən qarşılıqlı təsirlənmənin, həm də ciddi rəqabət və mübarizənin yaşandığı dövrdür. Sözügedən tarixi dövr həm də ənənəviliklə modernizmin, klassik Şərq poetikası ilə yeni tipli Qərb estetikasının sürətli inteqrasiyası və transformasiyası hadisəsinin yaşandığı mərhələdir.*

**Açar sözlər:** *poeziya, ədəbiyyat, romantizm, parnasizm, ədəbi proses*

## Giriş

İlk növbədə qeyd etmək lazımdır ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində türk poeziyasında dünya ədəbi cərəyanlarının hamısının olduğunu iddia etmək doğru deyildir. Məsələn, XIX əsrin sonu – XX əsrin ilk onilliklərində rus ədəbiyyatında özünü göstərən imajinizm (S.Yesenin), futurizm (V.Mayakovski), akmeizm (N.Qumilyov) kimi ədəbi cərəyanlar türk poeziyasında müşahidə edilmir. Digər tərəfdən, XIX əsrin son rübü ilə XX əsrin ilk iki onilliyində türk ədəbiyyatında təşəkkül tapıb inkişaf edən, osmanlıçılıq (osmanlı milliyyətçiliyi), türkçülük (turançılıq), islamçılıq (ümmətçilik) kimi ədəbi-ideoloji cərəyanlara da inkişaf etmiş Qərb ölkələrinin ədəbiyyatında rast gəlmirik.

Digər tərəfdən, inkar edilməsi mümkünsüz gerçəklik bundan ibarətdir ki, müasir dünya ədəbiyyatşünaslığı və humanitar təfəkküründə birmənalı olaraq qəbul edilən romantizm, realizm (maarifçi, tənqidi) kimi ənənəvi formaları dövrün Namiq Kamal, İbrahim Şinasi, Ziya Paşa, Əbdülhəq Hamid, Tofiq Fikrət, Xalid Ziya, Məhmət Rauf kimi türk ədiblərinin yaradıcılığında bilavasitə izləmək mümkün olduğu halda, naturalizm, parnasizm, dadaizm, dekadentizm, simvolizm, sürrealizm, kubizm kimi ədəbi cərəyanların aparıcı xüsusiyyətlərini yalnız bir qisim türk sənətkarının (məsələn, Əhməd Midhəd, Nəbizadə Nazim, Hüseyn Rəhmi, Yəhya Kamal, Əhməd Haşim və b.)

* Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent; Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi; aydan.xandan@bsu.edu.az

yaradıcılığında müşahidə etmək mümkündür. Ədəbi qrup və məktəblərə gəlincə, XIX əsrin II yarısında iki böyük ədəbi topluluq ("Tənzimat" və "Sərvət-i fünun") ortaya çıxmışdır ki, ədəbi cərəyanlar baxımından hər iki qrup qismən ortaq məxrəcdə birləşsə də, ədəbiyyata baxış nöqteyi-nəzərindən, ədəbi metod və üslub baxımından barışmaz mövqedə olmuşlar. Tənzimatçıların "sənət xalq (cəmiyyət) üçündür" nəzəriyyəsini və maarifçilik fikir cərəyanını mənimsəyən ədəbi-ideoloji tutumuna qarşı "sərvət-i fünun"çular "sənət sənət üçündür" nəzəriyyəsini və "sənət şəxsi və məhrəmdir" ideologiyasını mənimsəmişdilər.

Eləcə də kubizm, futurizm, ekspressionizm, imajinizm kimi qısamüddətli və lokal xarakterli ədəbi cərəyan və təmayüllər türk ədəbiyyatında tamamən olmadığı halda (Nazim Hikmətin ilkin Moskva dövrü şeirlərindəki kubizmi unutmuruq), bəzi ədəbi cərəyan və təmayüllər sonrakı dövrlərdə – məsələn, sürrealizm XX əsrin 40-cı illərində ("Birinci yeni", yaxud "Qərib"çilər – Orxan Vəli, Məlih Cövdət, Oqtay Rüfət), ekzistensializm 50-ci illərində ("İkinci yeni"çilər – Edip Cansevər, İlhan Bərk, Camal Sürəyya, Turqut Uyar və b.), modernizm 70-ci illərində (Oğuz Atay, Lətifə Təkin, Ədalət Ağaoğlu, Fərid Edgü), postmodernizm 80-ci illərindən sonra (Orxan Pamuk, Həsən Ali Toptaş, Mətin Kaçan, Elif Şəfəq, İhsan Oktay Anar və b.), neoənənəçilik ("yaradıcı mühafizəkarlıq") isə əsrin 80-ci illərindən etibarən (Mustafa Kutlu, Sezai Karakoç, İsgəndər Pala, Nazan Bəkiroğlu və b.) təşəkkül və inkişaf etmişdir.

Türk poeziyasının sözügedən dövrünün poeziyasının araşdırılması bütövlükdə o zaman kəsiyinin tarixinin, ictimai-siyasi hadisələrinin, klassik ədəbiyyatdan gələn ənənələrin və milli mədəniyyətinin öyrənilməsi zərurətini meydana çıxarır. Bütün bunlarla yanaşı, dövrün poeziyasının dil və üslubu, vəzn və janrları, ədəbi-bədii formaları, duyğu, məzmun və düşüncə xüsusiyyətləri haqqında da yaxşı təsəvvürə malik olmaq lazımdır.

Bunu xüsusilə qeyd etmək lazımdır ki, araşdırılan dövrün türk poeziyasında fəaliyyət göstərən sənətkarların bir çoxu həm ədəbi sahədə, həm də siyasi-ictimai aləmdə geniş fəaliyyət göstərmiş şəxsiyyətlər olmuş və ictimai-siyasi ideyalarını, fikirlərini öz şeirlərində qələmə alaraq, xalqı maarifləndirmək yolunda olduqca vacib işlər görmüşlər. Bu baxımdan da tədqiq olunan dövrün poeziyası bütövlükdə türk ədəbiyyatının sonrakı inkişafında olduqca böyük əhəmiyyət daşıyır.

Araşdırmanın tədqiqat obyektinin tarixi-xronoloji sərhədləri təxminən qırx illik bir dövrü əhatə etsə də, bu zaman kəsiyi bütövlükdə Türkiyə ictimai-siyasi həyatının ən mürəkkəb və taleyüklü hadisələrlə dolu mərhələsi sayıldığı kimi, türk ədəbiyyatı, o cümlədən, türk poeziyası baxımından da bədii metod, ədəbi cərəyan, bədii üslub, ədəbi məktəb, təmayül və qruplarla son dərəcə zəngin bir mərhələsidir. Təsadüfi deyil ki, XIX əsrin sonu – XX əsrin əvvəlləri türk nəsri və poeziyasının köhnədən yeniyə keçid mərhələsi hesab edilməklə yanaşı, həm də bütövlükdə milli ədəbiyyatın formalaşma prosesi dövrü sayılır. Araşdırmalar göstərir ki, bu dövr ümumən türk poeziyasında mənşə və mənbələr, daxili resurslar və kənar təsirlər, ədəbi cərəyan, təmayül, qrup və məktəblər arasında qarşılıqlı münasibətlər baxımından da həm bir-birindən qarşılıqlı təsirlənmənin, həm də ciddi rəqabət və mübarizənin yaşandığı dövrdür. Sözügedən tarixi dövr həm də bütövlükdə ənənəviliklə modernizmin, klassik Şərq poetikası ilə yeni tipli Qərb estetikasının sürətli inteqrasiya və transformasiya hadisəsinin yaşandığı mərhələdir. Bu baxımdan türk ədəbiyyatında çox mühüm yer tutan çoxəsrlik türk poeziyasının tədqiq edilməsi xüsusilə böyük önəm daşıyır. Türk poeziyası müxtəlif dövrlərdə fərqli inkişaf yolu tutmuş, zaman-zaman müxtəlif xalqların ədəbiyyatlarından

bəhrələnmiş, lakin nəticədə məhz özünəməxsus bir poeziyaya çevrilmişdir. İslamın qəbulundan öncəki dövrlərdə yaranan ilk poetik nümunələr türk xalqının daxili aləmindən, hisslərindən, arzularından bəhs etmiş, tarixi şərait dəyişdikcə isə yeni məzmunlar və formalarla zənginləşərək dünya poeziyasına yeni-yeni müəlliflər qazandırmışdır.

Tədqiqat işinin əsas məqsədi XIX əsrin sonu – XX əsrin əvvəllərində türk ədəbiyyatında yaranmış ədəbi cərəyanların xüsusiyyətlərini, o dövrdə fəaliyyət göstərən şair və yazıçıların yaradıcılıqlarında bu cərəyanların təzahürünü ortaya çıxarmaqdır. Həmçinin, məqalədə sözügedən tarixi dövrün bütövlükdə ənənəviliklə modernizmin, klassik Şərq poetikası ilə yeni tipli Qərb estetikasının sürətli inteqrasiyası və transformasiyası hadisəsinin yaşandığı mərhələ kimi tədqiqi məqsədlər arasında yer almaqdadır. Araşdırılan dövrün müxtəlif ədəbi cərəyanlarına mənsub sənətkarların eyni bir ədəbi qrup daxilində yaradıcılığı fenomeni və bir-birindən qarşılıqlı təsirlənmə, rəqabət və mübarizəsinin elmi təhlili tədqiqat işinin vəzifələri arasındadır.

## 1. Ədəbi prosesin formalaşmasında yeni cərəyanların rolu

Məlumdur ki, ədəbi prosesdə yeni mərhələ, məktəb, cərəyan, təmayül demək ilk növbədə təzə imzaların, bu imza sahiblərinin ətrafında toplaşdıqları ədəbi jurnal, yaxud qəzetlərin, dərnəklərin meydana çıxması, dövrün tələbinə uyğun mövzu və problemlərin, aktual ideyaların və buna müvafiq tiplərin bədii tədqiqat obyektinə çevrilməsi, özündən əvvəlkiləri ya tamamən inkar etmək, ya da yeniləmək yoluyla təzə mövzu, yeni bədii-estetik forma və üslub axtarışlarının yaranması deməkdir. XIX əsrin sonu – XX əsrin əvvəllərində daha çox realizm və onun formaları (maarifçi realizm, tənqidi realizm, ictimai realizm) ilə romantizm (o cümlədən, inqilabi romantizm) ədəbi cərəyanı ətrafında qütbləşən türk ədəbiyyatında dövrün sənətkarlarının müxtəlif ideoloji-siyasi-fəlsəfi cərəyan və təmayüllərə də meyilləndiyini müşahidə edirik.

Məlumdur ki, hər hansı əsərdə cərəyan edən hadisə-süjet müstəvisi kifayət qədər lakonik və dinamik, diqqətçəkən olsa da, bədii mətni yaradan həlledici amil başqadır. Hadisələr, süjet və intriqa əsərə dinamika verən üst qatdır. Yəni əsərin mənası, mətləbi təsadüf, qəfil olay, gözlənilməzlik kimi anlayışlardan ibarət deyil. Süjet və fabula daha dərindəki fəlsəfi, sosial, psixoloji məzmun və mənaları aşkarlayan vasitələrdir. Realizmin təşəkkül etdiyi XIX əsrin 70-90-cı illərində də türk romanında müşahidə edilən maraqlı və tamamən yeni süjetlər bu əsərlərdəki fəlsəfi-mənəvi, sosial-psixoloji məzmunu ifadəyə xidmət edirdi. Həmin dövrdə romantik estetika ilə maarifçi realizm tədricən doqmatik ictimai əxlaq kodeksini rədd etməyə, daxili azadlıq duyğularını qabartmağa, etnik-sosial qadağaları mümkün qədər aşmağa səy göstərirdi. Beləliklə, mahiyyət etibarilə lirik-realist psixologizmi ədəbi metod olaraq mənimsəyən türk ədiblərinin ilk tənqidi realist romanları meydana çıxırdı. Namiq Kamalın maarifçi-realist ("İntibah"), Əhməd Midhəd Əfəndinin maarifçi-romantik ("Felatun Bey ile Rakım Efendi") əsərlərinə paralel Şəmsəddin Saminin realist (türk ədəbiyyatşünaslarının "Qərb tərzində yazılmış ilk roman" deyə xarakterizə etdikləri "Taaşşuki-Talat və Fitnat"), Xalid Ziyanın lirik-psixoloji realist ("Aşkı-memnu"), Nəbizadə Nazimin tənqidi realist (yazıçı özü "hakikiyyun" terminini işlədir) və Emil Zolyanın təsiri ilə qələmə aldığı naturalist-realist ("Kara Bibik", "Haspa", "Zehra") povest (türk ədəbiyyatşünasları bu mənada "uzun hekayə" terminini işlədirlər) və romanları yaranırdı.

Türk poeziyasında ciddi yeniliklər özünü ədəbi cərəyan və metodlardan daha çox siyasi-ideoloji təmayüllər müstəvisində təzahür edirdi. Namiq Kamalın maarifçi-romantik ("Hürriyet" qəsidəsi), Tofiq Fikrətin inqilabi-romantik ("Sis"), Mehmet Əşrəfin tənqidi-satirik ("Deccal") şeirləri ilə yanaşı, Mehmet Əmin Yurdaqulun və Ziya Göyalpın türkçü, Mehmet Akif Ərsoyun islamçı, Yəhya Kamal Bəyatlının osmanlıçı təmayüllü şeirləri dövrün poeziyasının aparıcı ədəbi-ideoloji və fəlsəfi fikir cərəyanlarını təmsil edirdi. Bu dövrün poeziya və nəsrinin nümayəndələri ədəbiyyatı İstanbul mühitindən, şəhər və patriarxal mövzulardan kənara çıxarmağı, kənd həyatını və qadınları ədəbiyyata gətirməyi, türk insanının özü olmaq, millətin etnik mənliyini saxlamaq hüququnu təsdiqlədi. Əlbəttə, bu hüququn təsbiti o qədər asan olmadı, günün ədəbi mühiti miqyasında əzablı, bəzən faciəvi, bəzən də yabançı təzahürlərini təqdim etdi. Avropa ədəbiyyatından əxz edilən ümumi ədəbi meyarlarla yanaşı, ənənəvi poetik-estetik qaydaları davam etdirmək də lazım gəldi. Sözügedən mərhələ türk ədəbiyyatında, sanki müasir dünya ədəbiyyatında olduğu kimi, "çoxmetodlu ədəbiyyat" konsepsiyasında təzahür edirdi.

Məlumdur ki, sənətkar nəzəriyyələrə uyğunlaşaraq, "izm"ləri düşünərək yazmır, həyatın çağırışlarını dinləyib yazır. Bu və ya digər əsərin "...izm"ini müəyyənləşdirmək ədəbiyyatşünas-alim və tənqidçilərin işidir. Fikrimizcə, bütövlükdə araşdırılan dövrün ədəbiyyatı, eləcə də sənətkarların ədəbi-estetik baxımdan yaradıcılığı ümumi məzmun, ideya istiqaməti, poetik özəllik və s. yalnız öz zəmanəsinin nəzəriyyə və "izm"ləri çərçivəsində araşdırılmalı və öyrənilməlidir. Bu da həqiqətdir ki, yalnız geniş biliyə, dərin savada, böyük istedada və ədəbi üsluba malik sənətkarlar öz dövrünün onu qane etməyən hansısa "izm"inə uyğunlaşmır, əksinə, onların əsərləri yeni "izm"lərə, ədəbi cərəyan və təmayüllərə, yeni ədəbi məktəblərin meydana çıxmasına rəvac verir.

## 2. Ədəbi cərəyanların formalaşması prosesi. Romantik və realist metod

Ədəbiyyatşünasların əksəriyyətinin ortaq qənaəti belədir ki, ədəbi cərəyan müəyyən dövr ədəbiyyatını xarakterizə edən, həmin dövrdə yaşayıb-yaratmış bir çox yazıçıların əsərlərinə xas olan ideya, məzmun, üslub xüsusiyyətlərinin və bədii-estetik prinsiplərin məcmusudur. Bu prinsiplər yazıçıların əsərlərində özünəməxsus şəkillərdə təkrar olunur və müxtəlif parametrlərdə – həyat hadisələrinin və xarakter tiplərinin seçilməsi, onların işıqlandırılması və dəyərləndirilməsi, süjetin quruluşu, əsərlərdə istifadə olunan bədii ifadə vasitələri, dil xüsusiyyətləri və s. şəkillərdə təzahür edir.

XIX əsrin sonu – XX əsrin əvvəlləri türk ədəbiyyatına dair tədqiqatların bir qismində bəzən ədəbi cərəyan anlayışı ilə ədəbi məktəb, bədii metod, bədii üslub anlayışları eyniləşdirilir. Ədəbi cərəyanların formalaşması və mövcudluğu qədim dövrlərə gedib çıxsa da, kəmiyyət baxımından artışı XIX-XX əsrlərə aiddir ki, bu da tamamilə təbiidir. Belə ki, bu dövrdə dünyada böyük sürətlə baş verən siyasi proseslər ədəbiyyat nümayəndələrini həyata baxışlarını dəyişdirməyə sövq etdi. Fərqli baxışların nümayəndələri fərqli yaradıcılıq ideyaları ətrafında birləşə bildilər. Bu birləşmələrin bir qismi ədəbi cərəyan halına düşərək sərhədlər aşdı və müxtəlif xalqların ədəbiyyatında təzahür etməyə başladı. Digər bir qismi isə məhdud ölkələrin öz sərhədləri daxilində qalmaqla kifayətləndi. Başqa sözlə, dünya ədəbiyyatında mövcud olan ədəbi cərəyanların bir qismi, demək olar ki, bütün dünya xalqlarının ədəbiyyatına sirayət etdiyi halda, digər bir qismi daha az yayıldı. XIX əsrin II yarısında təşəkkül və

formalaşma dönəmi keçirən "ədəbiyyat-i cədidə" (yeni ədəbiyyat) əsrin sonlarına doğru, xüsusən XX əsrin ilk iki onilliyində güclü intibah mərhələsinə qədəm qoydu.

Məlumdur ki, ədəbi əsərlərin meydana çıxdığı ilk günlərdən indiyədək dünya ədəbi prosesinə yaradıcılıqla əlaqədar iki bədii düşüncə forması – bədii metod hakim olmuşdur. Bunlardan biri romantik metod, digəri isə realist metoddur. Bu və ya digər ədəbiyyatın bədii yaradıcılıqla məşğul olan nümayəndəsi özü hiss etmədən həmin metodlardan birindən istifadə edir. Aydın məsələdir ki, sənətkar əvvəlcədən "mən bu, yaxud digər metoda söykənərək əsər yazacağam" demir. Çünki nəzəri olaraq fikir və düşüncədə metod yaradıb onu bədii yaradıcılığa tətbiq etmək mümkün deyil, əksinə, bədii yaradıcılığın özü, müxtəlif janrlarda yazılmış əsərlər məhz həmin metodlardan birinin təminatçısı rolunda çıxış edir. Romantizm bir ədəbi cərəyan kimi həm romantik metodu, həm də romantik üslubu özündə ehtiva edərək yaşatmışdır.

Təbiidir ki, şeirdəki sözün geniş mənasında harmoniyanı (misra, bölgü, qafiyə, ritm) poetik vüsətlə təcəssüm etdirən və heç bir sərhəd tanımayan romantik metod dövrün poeziyasının ən yayğın ədəbi hadisəsi, hətta yeni-yeni formalaşmaqda olan bədii nəsr əsərlərində təzahür və təcəssümü idi. Araşdırılan dövrün sənətkarlarının böyük əksəriyyətinin bədii yaradıcılığı romantik metoda əsaslanırdı. Bu, tamamilə başa-düşüləndir. Belə ki, romantik metod insanın daxili enerjisini artırır, onu göylərə qaldırır və eyni zamanda, möhkəm tellərlə həyata bağlayır. İnsanın bədii sözlə, incəsənətin müxtəlif sahələrinə aid əsərlərlə göylərə qaldırılması və bu yüksəlişlə də həyata bağlanması ziddiyyətli fikir deyil. Daxili, ruhi yüksəliş həyatı daha çox sevmək deməkdir. Görkəmli ədəbiyyatşünas K.Əliyevin dediyi kimi, "Romantik metodun doğuşu var, ölümü yoxdur, onun zamanı məhdud deyil. Romantik metod ruhi yüksəlişə, qeyri-adi qəhrəmanlara, yüksək pafosa, bəlağətli dilə yol açan və bunlarla da öz varlığını təsdiq edən bir metoddur" (Bəydilli, 2010: 200).

Burada romantik metod və romantizm ədəbi cərəyanı arasındakı bağlantıya diqqət etmək vacibdir. Belə ki, XVIII əsrin sonlarında Avropa ədəbiyyatında romantik metoda əsaslanan romantizm bir ədəbi cərəyan kimi təşəkkül tapıb inkişaf etməyə, formalaşmağa başladı. İlk dəfə olaraq Qərbdə – Avropada meydana çıxan romantizm ədəbi cərəyanı romantik metoda əsaslansa da, başqa bir ədəbiyyatşünaslıq terminidir, deməli, "romantik metod" və "romantizm ədəbi cərəyanı" bir-birinə nə qədər bağlı olsalar da, fərqli ifadə və anlayışlardır. Avropada romantizm ədəbi cərəyanı mövcud ictimai-tarixi şəraitin balası kimi doğuldu, yəni onun doğum tarixi var, amma bu tarix konkret illə, ayla, günlə deyil, müəyyən ictimai-siyasi hadisə ilə bağlanır. Hətta bu romantizmin sonu da bəllidir. Ədəbi cərəyanların bədii metoddan əsas fərqi də məhz ondan ibarətdir ki, bu cərəyanların doğum və ölüm tarixləri mövcuddur. Avropa romantizmi XVIII əsrin lap sonlarında doğularaq XIX əsrin sonlarına qədər davam etmişdi.

Rus romantizminə gəldikdə, o, XIX əsrin əvvəllərində sentimentalizmdən keçərək formalaşıb. Əslində sentimentalizm də, romantizm kimi, bədii yaradıcılıq metodu baxımından romantik metoda əsaslanır, amma bədii əsərlərdə insan hisslərinin daha qabarıq formada verilməsi, hətta bu hissin kultlaşdırılması və obrazların simasında aparıcı mövqeyə qalxması onu ayrıca bir ədəbi cərəyan kimi formalaşdırmışdı. Buradan da belə bir nəticə meydana çıxır ki, bir neçə ədəbi cərəyan (məsələn, romantizm və sentimentalizm!) eyni bir yaradıcılıq metoduna aid ola bilər və bu, son dərəcə məntiqidir.

Türkiyə ədəbiyyatında isə müasir mənada romantizm XIX əsrin 70-ci illəri – XX əsrin əvvəllərinin ədəbi hadisəsidir. "Tənzimat"dan üzü bəri, "Gənc türklər" hərəkatı da daxil olmaqla, ictimai-tarixi şərait Türkiyədə romantizm ədəbi cərəyanının zemininə çevrildi. Bizim ədəbiyyatşünasların ortaq qənaəti budur ki, türk sənətkarları Əbdülhəq Hamidin, Namiq Kamalın və Tofiq Fikrətin əsərləri XX əsrin əvvəllərində Azərbaycan romantizminin də təşəkkülü və formalaşmasına ciddi təkan vermişdir.

Realist metod və realizm ədəbi cərəyanının münasibətlərinə gəlincə, bunu qeyd etmək vacibdir ki, dünya ədəbi prosesində realist metodun əlamətləri romantik metodla müqayisədə gec müşahidə olunur. Əlbəttə, realizm ədəbi cərəyanı tam formalaşana qədər keçdiyi mərhələlərdə bu gün realist metod realist bədii düşüncə terminləri ilə ifadə edilən və ədəbiyyatşünasların, haqlı olaraq, "erkən realizm" dedikləri formalarda istifadə edilmişdir.

Türkiyə ədəbiyyatında realizmin formalaşması XIX əsrin 70-ci illərindən sonrakı dövrə aiddir. Məlumdur ki, realizm həyatın doğru, dürüst, hərtərəfli və tipikləşmə əsasında inikasını bir estetik prinsip kimi irəli sürürdü. Araşdırılan dövrün ədəbi hadisəsi olan realizm termini ilk dövrlərdə "həqiqiyyun" formasında işlədilirdi. Onun məzmun genişliyi, uzun bir dövr içərisində yaşaması, bu dövrdə ictimai-siyasi hadisələr və cəmiyyətlərdə baş verən tarixi dəyişikliklər, bir də realizmə aid ədəbi məhsulların bolluğu və zənginliyi romantizmlə müqayisədə bu cərəyana yeni tipoloji xüsusiyyətlər bəxş etmişdi. Bu baxımdan realizm ilkin mərhələdə iki formada – maarifçi realizm və tənqidi realizm şəklində təzahür etmiş, sonralar buna türk ədəbiyyatşünaslarının "toplumçu gerçəkçilik" dedikləri sosial realizm forması qoşulmuşdu. Realizm bir ədəbi cərəyan kimi həm realist metodu, həm də realist üslubu özündə ehtiva edərək yaşadır. Pafos və təntənə, lirik-psixoloji məqamlar realist metodda romantik üslubu təşkil edə bilər və romantizmin lirik və epik üslublarından söz açmaq olar.

## 3. Ədəbi məktəb anlayışı

Burada "ədəbi məktəb" anlayışına da aydınlıq gətirməyə ehtiyac vardır. Adətən, ədəbi məktəblər ayrı-ayrı sənətkar şəxsiyyətlərinin adı ilə bağlı olur və həmin sənətkarların bədii irsinə aid xüsusiyyətlər müasirləri və sonrakı xələfləri tərəfindən inkişaf etdirilir. Yalnız ideya-bədii cəhətdən orijinal bədii əsərlər yazan, bu əsərləri ilə ədəbiyyat tarixində yeni bir yol açan və irəli sürdüyü ideyaları davamçıları tərəfindən müdafiə olunan sənətkarlar ədəbi məktəb yarada bilərlər.

Məsələ burasındadır ki, öz mətbu orqanları olmayan sənətkarlar qrupu məktəbə çevrilməkdə çətinliklərlə qarşılaşırlar. XIX əsrə qədərki Osmanlı Türkiyəsinin müxtəlif yerlərində ədəbi məclislər (məsələn, XVI əsrdə Hələbdə Xınalızadə Həsən Çələbinin başçılıq etdiyi "Şairlər məclisi", 1861-1862-ci illərdə İstanbulda Leskofçalı Qalibin rəhbərliyindəki "Encüman-i şüəra toluluğu") olsa da, ayrıca öz mətbu orqanları olmadığı üçün ədəbi məktəbə çevrilə bilməmişdilər. İlk dəfə məhz araşdırdığımız tarixi-xronoloji sərhədlər çərçivəsində və ya ona yaxın bir zaman dilimində ədəbi məktəblər-topluluqlar ("Tənzimat", "Sərvət-i fünun", "Fəcr-i ati", "Beş hecaçılar") yaranmışdı. Lakin bütün bu məktəblərin fərqli sənətkar qrupları olduğu halda, hamısının istifadə etdiyi ədəbi metod və cərəyanlar bütün formaları ilə romantizm və realizm idi.

Ədəbiyyatın hər formasının həyat həqiqətlərini özünəməxsus dərk etmək və əks etdirmək xüsusiyyətləri vardır. Hər bir ədəbi janr öz məxsusi vəzifəsini həll edir və bu vəzifədən çıxış edərək həyat materialına yanaşır, onu məxsusi üsullarla ümumiləşdirir.

Məsələn, elmi ədəbiyyat, publisistika həyat həqiqətini məntiqi təfəkkür, elmi düşüncə vasitəsilə dərk edir, faktları təhlil edir, ictimai-siyasi nəticələr çıxarır, ümumiləşdirmələr edir, hadisənin mahiyyətini açır, ona qiymət verir, onu təsdiq, yaxud inkar edir. Bədii ədəbiyyat isə həyatı obrazlar və bədii təfəkkür vasitəsilə dərk edir, hadisələri bədii cəhətdən mənalandırır, insanın xarakterini açmağa, onun surətini yaratmağa çalışır. Yeni ədəbiyyatçılar ilk növbədə nəsrdə və dramaturgiyada həyatı dərk etməyin müxtəlif formalarını Qərb ədəbiyyatından əxz etməyə başladılar. Lakin bu dövrün ziyalılarının xalqa xidmət etməyin yolu sadəcə yeni növ və janrlarda, oxucuya yad mövzularda əsər qələmə almaqla bitmir. Ona görə də dövrün tanınmış yazıçıları yeni formalarda ənənəvi mövzuların qələmə alınmasını da eyni dərəcədə vacib və qiymətli hesab edirdilər. Təsadüfi deyil ki, onlar həyat həqiqətlərini müasir Qərb nəsrinin forma və janrlarında milli bədii obrazlar vasitəsilə əks etdirməyə, həyat hadisələrinin təsvir və təhkiyəsində yerli adət-ənənələr, islami dəyərlərə də sadiq qalmağa səy göstərirdilər. Başqa sözlə, yeni klassik-ənənəçi romanlar ənənəvi olduqları qədər həm də modern idilər. Bu əsərlərdə bədii obrazların dilində, hal və hərəkətlərində, mükalimə və daxili monoloqlarında, eləcə də birbaşa müəllif təhkiyəsində maddi olanla mənəvi olan, obyektiv gerçəklik materialı ilə dini dəyərlər, elmi-məntiqi müddəalarla İslam təfəkkürünün komponentləri bir-birini üzvi şəkildə tamamlayır, bir-birini gücləndirərək inkişaf edir.

Məlumdur ki, bədii ədəbiyyat təxəyyül və yaradıcılıq, dini (mühafizəkar) məzmunlu əsər isə metafizik fəlsəfi təfəkkür məhsulu olsa da, eyni materialdan, yəni sözdən yaranır. Lakin ədəbiyyat ideyanı, fikri, estetik idealı obrazlar vasitəsilə, yazıçı təxəyyülünün köməyi ilə ifadə etdiyi halda, dini əsərdə söz din (İslam) fəlsəfəsinə söykənilərək ifadə edilir. Realist yazıçının missiyası dəqiq ünvanı tapmaq, əsərin ideya-məzmununu bədii-estetik formada həmin ünvana ötürmək olduğu kimi, ənənəçi müəllifin də vəzifəsi real həyati faktları bədii materiala həm yaradıcı təxəyyül, həm də islami hikmətlər vasitəsilə çevirməkdir. Bədii söz oxucunun hisslərinə ünvanlanırsa, bədii-dini söz həm də şüura, ağla yönəldilir. Yeni tipli ənənəvi nəsrdə predmetə bu iki yanaşma tərzi sinxron şəkildə, sintez edilərək və elə xüsusi formada həyata keçirilir ki, duyğu və hisslərin bitdiyi yerdə ağıl-məntiq, real aləm sonlandığında metafizik dünya işə qarışır. Çətin anlaşılan məqamlarda yazıçı özü imdada yetişir, oxucuya qissədən hissə çıxarmağa kömək edir. Beləliklə, yeni türk ədəbiyyatı əsərləri sırf belletristika hadisəsi, bədii-estetik məmulat deyil, eyni zamanda, dövrün ənənəvi-islami dəyərlərinin estetik təqdimatı şəklidir. Tədqiqata cəlb edilən zaman dilimi ədəbiyyatın bütövlükdə maarifçi mahiyyəti, ədiblərin əsərlərinin hekayə, roman, dram kimi rəngarəng janr təbiəti, yaradıcılıq axtarışları və yeniliyi məhz islami dəyərlərin yeni humanitar təfəkkür bucağından türk ədəbiyyatı üçün tamamən təzə olan janrlarda büsbütün yeni, yaxud köhnə mövzunun təzə baxış bucağından inikası planında, Şərq poetikası ilə Qərb estetikasının vəhdətində axtarılmalıdır.

Yeni nəsrdə ümumbəşəri bir ideyanın, fikrin doğruluğunun isbatı bu düşüncə və ideyanın poetik dilin gücüylə ən uyğun bir formaya salınması yolu ilə həyata keçirilir. Əgər bu fikir Qərbdən alınıbsa belə, Şərq estetikası üslubu ilə təqdim edilir. Həyat həqiqəti çılpaq şəkildə yox, sənət mərtəbəsinə qaldırılaraq təqdim olunur. Bir hadisə və əhvalatın obyektiv gerçəkliyi olduğu kimi göstərməsi üçün bu hadisə və əhvalatın “hekayətinə” (ideya məzmununa) ən uyğun bədii-estetik qəlib – romantizm (ənənəvi-klassik, yaxud inqilabi), realizm (tənqidi, yaxud maarifçi) tapılır. Bu ədəbi cərəyanların bədii-estetik formalarının içində şüur axını da, lirizm-poetiklik də, epiklik də, fantastika

da, magik realizm də, təhkiyəçinin özündən tutmuş onun həyat həqiqətinə baxış bucağına, reallıqdan təxəyyülə qədərki bütün bədii-estetik fiqurlar yer alır. Doğrudur, bu dövrdə Osmanlı imperatorluğunun ictimai-siyasi və ədəbi-mədəni mühiti müstəvisində ən çox və ciddi dəyişiklik və yenilənmələr türk nəsri və dramaturgiyasında baş verirdi. Bununla yanaşı, XIX əsrin II yarısından etibarən "Tənzimat" (1860-1895) və "Sərvət-i fünun" (1896-1901) dönəmlərində türk söz sənəti üçün tamamən təzə olan ("ədəbiyyat-i cədidə") yeni tipli hekayə, roman, dram və publisistik janrların təşəkkül edib formalaşması ilə birlikdə, türk poeziyası sahəsində də yeniliklər baş verir, ənənəvi janrlarla bərabər Qərb poeziyasından əxz edilən yeni, yaxud hibrid poetik janrlar ortaya çıxır, heca vəznli yazılı milli poeziya nümunələri yaranırdı (Abıyev, 2005: 65).

Bu dövrdə yuxarıda adı çəkilən "Tənzimat" ədəbiyyatçıları içərisində yer alan İbrahim Şinasi, Namiq Kamal, Ziya Paşa, Əhməd Midhəd, Rəcaizadə Mahmud Əkrəm, Əbdülhəq Hamid Tarxan, Samipaşazadə Sezai, Fatma Aliyə xanım, Nəbizadə Nazim, Müəllim Naci və b., "Sərvət-i fünun" ədəbi qrupuna daxil olan Cənab Şəhabəddin, Tofiq Fikrət, Xalid Ziya Uşaqlıgil, Hüseyn Cahid Yalçın, Hüseyn Suad Yalçın, Süleyman Nazif, Mehmet Rauf, Əli Əkrəm Bolayır və bu kimi görkəmli sənətkarlarla yanaşı, sözügedən ədəbi qruplara qoşulmadan müstəqil yazıb-yaradan, ilk dəfə tanınmış türk ədəbiyyatşünası Mehmet Kaplan tərəfindən "ara nəsil" adı verilən Hüseyin Rəhmi Gürpınar, Əhməd Rasim, Nigar Xanım, İsmail Safa, Mihrünnisa Xanım, Bəşir Fuad, Əli Kamal, Əhməd İhsan Toxgöz və bu kimi tanınmış şair, yazıçı, ədəbiyyat nəzəriyyəçisi və tənqidçi-filosofları yetişməyə, sonrakı ədəbi nəsil üçün nümunə olan sanballı əsərlər verməyə başlamışdılar.

Bu dövrdə "Sərvət-i fünun" ədəbi qrupu içərisində yer alan bir neçə gənc sənətkarın 1908-ci ildə təsis etdikləri və 1911-ci ildən etibarən tədricən dağılmağa başlayan "Fəcr-i ati" ("Gələcəyin şəfəqi") ədəbi topluluğu izlənmişdir. Bu qrupa Əhməd Haşim, Yaqub Qədri Qaraosmanoğlu, Rəfiq Xalid Karay, Həmdullah Sübhi Tanrıövər, Cəlal Sahir Erozan, Şəhabəddin Süleyman, Faiq Əli Ozansoy, Mehmet Fuad Köprülü və bu kimi gələcəyin məşhur türk şair, yazıçı və ədəbiyyatşünasları daxil idi (Abıyev, 1978: 126).

Araşdırılan dövrün sonuncu ədəbi topluluğu öz başlanğıcını 1911-ci ildən götürən və Cümhuriyyət ədəbiyyatına keçid hesab edilən, "Milli ədəbiyyatçılar" adı verilən Ziya Göyalp, Mehmet Əmin Yurdaqul, Ömər Seyfəddin, Əli Canib Yöntəm, Xalidə Ədib Adıvar, Rəşad Nuri Güntəkin və dövrün tanınmış sənətkarları, eləcə də bu ədəbiyyat axını içərisində yer alan "Beş hecaçılar" (hecanın beş şairi) – Orxan Seyfi Orhon, Enis Behiç Koryürek, Xalid Fəxri Ozansoy, Yusif Ziya Ortaç və Faruq Nafiz Çamlıbeli əhatə edir.

## 4. Türk ədəbiyyatında forma və məzmun dəyişikliyi

Yeni ədəbiyyat həm də ədəbi janr, forma, dil və üslub, ifadə üsulları ilə fərqlənirdi. Məhz bu ədəbiyyat poeziyaya yeni məzmunlar qazandırmış oldu. XIX əsr boyunca türk poeziyası çətin bir yol keçmiş oldu. Çətinlik həm də köhnə formalardan uzaqlaşaraq yeni formalara meyil etməkdə idi. Bu yolda poeziya nümayəndələri kəskin mübahisələr edir, mətbuatda əski-yeni münaqişələrinə yol açırdılar. Şairlərin bir qismi yeni poeziyanı dəstəkləyir və bu zəmində əsərlər meydana gətirir, digərləri isə onlara hücum edərək klassik ənənələrə sadiq qaldıqlarını nümayiş etdirirdilər. Yeniliyə ilk addım atan şairlər İzzət Molla, Əndərunlu Vasif olmuşdur. Bu şairlər ilk olaraq poeziyaya yeni abhava gətirənlərdən oldular. Əndərunlu Vasif poeziyasında qadın mövzusunun qaldırıl-

ması o dövr üçün tam fərqli bir mövzu idi. Məhz bu şair qadının cəmiyyətdə və ailədəki mövqeyi probleminə toxunmuş və bununla da poeziyada yeni və aktual, lakin daha əvvəllər toxunulmamış bir problemdən bəhs etmişdir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində türk ədəbiyyatında üç əsas ədəbi qrup mövcud idi. Onlardan birinə, şərti olaraq, osmanlıçılar, digərinə turançılar, üçüncüsünə isə yenilikçilər-xalqçılar adını vermək olar. Qeyd olunan qrupların öz liderləri və kredoları var idı.

Yenilikçilər adlanan qrup türk cəmiyyətinin müxtəlif zümrələrinin arzu və istəklərini ifadə etməklə yanaşı, çox rəngarəng idi. Onların siyasi-ədəbi baxışları tam müəyyənləşməmişdi, bəziləri ədəbi proseslərə biganə qalaraq neytral mövqedə idi, bəziləri dekadent və ya liberal ədəbiyyata meyil edirdi. Ədalət naminə qeyd olunmalıdır ki, yenilikçilər arasında sadə xalq kütləsinə yaxın olan sağlam fikirli xırda burjua yazıçıları da az deyildi və hər şeyə diqqət və məntiqlə yanaşan bu sosial qrup son dərəcə mürəkkəb və sürətlə dəyişən proseslərdən düzgün baş çıxarırdı. Onlar Anadoluya, əyalət həyatına, məişət danışığına və folkloruna xüsusi hörmətlə yanaşırdılar. Yenilikçilər arasında yaşlılar da az deyildi. Hüseyn Rəhmi, Süleyman Nazif kimi tanınmış və ədəbiyyatda öz xüsusi çəkisi olan köhnələrlə yanaşı, Fazil Əhməd, Xalid Fəxri, Ömər Seyfəddin, Aka Gündüz kimi yeni nəslin nümayəndələri bərabər çalışmaqdaydılar. Hecaçı şairlərdən Xalid Fəxri, Orxan Seyfi, Yusuf Ziya Ortac, Faruq Nafiz, Enis Behiç çox populyarlaşmışdılar. Yusuf Ziya o dövrdə türk ədəbiyyatı tarixində ilk dəfə olaraq heca vəznində "Binnaz" adlı mənzum pyes yazdı. Xalid Fəxri isə əruz vəznində, amma sadə türkcədə "Bayquş" adlı dram əsərini yazmaqla sübut etdi ki, əruzda da xalq dilində əsər yazmaq mümkündür və bu vəzn heç də bütün potensialını tükətməmişdir" (Qasımlı, 2005: 45).

Balkan müharibələri ərəfəsində Türkiyədə ittihadçılar tərəfindən təqdir olunan millətçilik ideyası geniş yayılmışdı. "Türk ülkücü ocaqları" adlanan ədəbi dərnəklər özlərinin mətbu orqanlarını nəşr etməyə başlamışdılar. "Türk yurdu", "Türk dərnəyi", "Xalqa doğru", "Yeni məcmuə" kimi jurnallarda türk soylarının coğrafiyasından, etnoqrafiyasından, qəhrəmanlıq dolu şanlı tarixindən bəhs edən yazılar verilirdi. Xaricdə yaşayan türklər də unudulmurdu. "Altun ərməğan" jurnalı "Qanı bir türklərə" epiqrafı ilə nəşr olunurdu. Qeyd olunan məcmuədə M.Əminin millətçi şeirləri, X.Ədibin "Yeni Turan" romanından parçalar, Z.Göyalpın "Turan" əsəri, Ə.Hikmətin "Qızıl Orda" mənzuməsi, Akçuraoğlunun məqalələri dərc edilirdi. İ.Hikmət qeyd edir ki, "Türk yurdu cəmiyyəti" Kazan və Bakı şəhərlərində "Türk yurdu" adlı aylıq jurnal çıxarırdı.

Məlumdur ki, XIII-XVIII əsrlər klassik osmanlı-türk şeiri əsasən ənənəvi Şərq (ərəb və fars) poetikası və sufizm (təsəvvüf) təməlində formalaşmış, əsrlər boyu öz mühafizəkarlığını qorumuş, kənar (Qərb) təsirlərə direniş göstərmişdi. Divan ədəbiyyatında müasir mənada hər hansı ədəbi-ideoloji cərəyandan söz açmaq mümkün deyildir. Bununla yanaşı, ayrı-ayrı dövrlərdə müxtəlif yerlərdə, xüsusən paytaxt və inkişaf etmiş şəhərlərdə bu və ya digər görkəmli şairin ətrafında ona və yaradıcılığına heyranlıq duyan, onu özünə ustad qəbul edib təqlid edən, onun yolu ilə gedən, nəzirə yazan şairlər dəstəsi, yaxud müştərək "şüəra məclisləri", dərnəklər toplanardı ki, bugünkü mənada ədəbi məktəb anlayışına yaxın idi. Digər tərəfdən, şairlərin yaradıcılığı forma etibarilə ənənəvi klassik Şərq üslubunda olsa da, mövzuları və ideya-məzmunu etibarilə dünyəvi və ya sufi şairlər deyə qruplara bölünə bilirdilər. Nəhayət, dili ərəb-fars-türk dilinin əsasında formalaşan osmanlıca olan, klassik Şərq ədəbi janrlarında və əruz vəznində ortaya çıxan poeziya ilə xalq dilində, şifahi xalq ədəbiyyatı, folklor və aşıq ədəbiyyatı janrlarında, heca vəznində yazıb-yaradan, o cümlədən, həm əruz, həm də heca vəznli

janrlarda əsər verən təsəvvüf (xalq-təkkə) sənətkar qruplarına ayrılırdılar. Bu dövr türk poeziyasında zaman-zaman digər Şərq ədəbiyyatlarının təsiri ilə yeni üslub və tərzlər də (məsələn, "səbki-hindi") meydana çıxırdı.

Rus türkoloqu Y.İ.Maştakovanın təsbitlərinə görə, türk ədəbiyyatında ilk forma-məzmun dəyişiklikləri özünü XVII əsrin sonlarında büruzə versə də, ciddi təbəddülat baş verməmiş, yalnız XVIII əsrin sonu – XIX əsrin I yarısından etibarən bütövlükdə türk ədəbiyyatı, o cümlədən, ənənəvi türk şeiri tədricən dəyişikliklərə doğru yönəlməyə başlamışdı (Maştakova, 1984: 26).

Türk ədəbiyyatında ciddi dəyişmə və yenilənmələr XIX əsrin II yarısına təsadüf edir. Bütövlükdə bu dövr ədəbiyyatına "ədəbiyyat-i cədidə" deyilməsi də buna işarədir. Türk ədəbiyyatı mütəxəssislərinin əksəriyyətinin ortaq qənaətinə görə, türk poeziyası XIX əsrin ikinci yarısı – XX əsrin I rübündə öz inkişafını üç istiqamətdə davam etdirmişdir. Biz irəlidə bu istiqamətlərin nümayəndələrinin şeirlərindən nümunələrin ətraflı elmi-nəzəri təhlilini verməklə onların yaradıcılıqları üzərində daha geniş dayanacağımızı xatırladaraq, burada yalnız onları bir-birindən fərqləndirən ən bariz cəhətləri qeyd etməklə kifayətlənirik.

Birinci istiqamətdə klassik türk divan poeziyası ənənələri davam etdirilir. Bu yolu mənimsəyən sənətkarların əsərlərində həm forma, həm də ideya-məzmun öz ənənəviliyini və mühafizəkarlığını qoruyur.

İkinci qrupu təmsil edən sənətkarlar ənənəvi poeziya formalarını saxlamaqla öz şeirlərində yeni məzmun ifadə etmək yolunu seçirlər. Başqa sözlə, bu tərzi mənimsəyən sənətkarların şeirlərində forma öz ənənəviliyini qorusa da, şeirin mövzusu ya tamamən, ya da qismən yenidir və öz zəmanəsi ilə səsləşir, bu şeirlərdə müəllifin dövrün həyat və hadisələrinə münasibəti nəzərə çarpır.

Üçüncü istiqamətin nümayəndələri həm forma və janr, həm də məzmun və ideya baxımından yeni olan, Qərb ədəbiyyatından alınmış və klassik türk poeziyasında əvvəllər istifadə edilməyən janrlarda şeirlər qələmə alırdılar.

Beləliklə, divan ədəbiyyatının poetik janrlarından və işlənmiş mövzularından tədricən uzaqlaşaraq xalq ədəbiyyatı və folklora müraciət edən Ziya Göyalp, Mehmet Əmin Yurdaqul, Rza Tofiq Bölükbaşı, daha sonra "Beş hecaçılar" adı veriləcək ədəbi qrupun sənətkarları – Orxan Seyfi, Xalid Fəxri, Yusif Ziya, Enis Behiç, Faruq Nafiz heca vəznində ilk şeirlərini yaratmaqla milli ədəbiyyat axınının təşəkkülü və formalaşmasında mühüm rol oynadılar.

"Sərvət-i fünun" ədəbi topluluğunun qurucuları və ən böyük iki şairi olan Tofiq Fikrət və Cənab Şəhabəddin iki müxtəlif yoldan hərəkət etsələr də, biri öz inqilabi romantik və maarifçi realist, o biri isə öz simvolist-romantik şeirləri ilə dövrün türk poeziyasının inkişafında mühüm xidmətlər göstərdilər (Abıyev, 2007:160).

Osmanlı imperiyasının tənəzzülünü ürək ağrısı ilə izləyən Mehmet Akif öz islamçı (ümmətçi) əsərləri, Yəhya Kamal isə türk xalqının qələbələrlə dolu ehtişamlı tarixi keçmişinə dair şeirləri ilə dövrün türk poeziyasında layiq olduqları yeri aldılar.

XX əsrin ilk ədəbi topluluğu "Fəcr-i ati"nin qurucularından olan simvolist şair Əhməd Haşimin yaradıcılığı bütövlükdə türk poeziyasının inkişafında özünəməxsus yerə sahibdir.

## Nəticə

Beləliklə, araşdırmanın nəticəsi olaraq qeyd etməliyik ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində türk poeziyası nümayəndələri daha çox realizm (maarifçi, tənqidi, sosial) ilə romantizm (o cümlədən, inqilabi romantizm) ədəbi cərəyanı ətrafında birləşsələr də, mənimsədikləri, yaxud tərəfdaşı olduqları müxtəlif ideoloji-siyasi-fəlsəfi cərəyan və təmayüllərə görə, bəzən də "sənət sənət üçündür" nəzəriyyəsinə üstünlük verərək ("Sərvət-i fünun"çular, xüsusən Cənab Şəhabəddin) bir-birindən fərqli qütblərdə yer almışlar. Başqa sözlə, fərqli baxışların nümayəndələri fərqli yaradıcılıq ideyaları ətrafında birləşmişdilər. Sözügedən dövrün türk poeziyasında ciddi yeniliklər özünü ədəbi cərəyan və metodlardan daha çox siyasi-ideoloji təmayüllər müstəvisində təzahür edirdi. Tofiq Fikrətin inqilabi-romantik və maarifçi-realist, Mehmet Əşrəfin tənqidi-satirik şeirləri ilə yanaşı, Mehmet Əminin və Ziya Göyalpın türkçü, Mehmet Akifin islamçı, Yəhya Kamalın osmanlıçı təmayüllü şeirləri dövrün poeziyasının aparıcı ədəbi-ideoloji və fəlsəfi fikir cərəyanlarını təmsil edirdi. Avropameyilli ədəbiyyat istər məzmun, istərsə də forma, dil etibarilə ozamankı osmanlı ədəbiyyatından fərqliydi. İbrahim Şinasi, Namiq Kamal, Ziya Paşa, Əbdülhəq Hamid, Rəcaizadə Mahmud Əkrəm və başqaları tənzimatçıların arasında öz fəallıqlarıyla xüsusilə seçilirdilər. Bu şairlər yeni ədəbiyyat yaratmaq həvəsiylə köhnə formalardan, divan ədəbiyyatının klassik qayda-qanunlarından imtina etmək istəyirdilər. Onlar dövrün şair və ədibləri olan Russo, Volterin əsərləri ilə tanış olur, əsərlərindəki mövzuları türk ədəbiyyatına gətirməyə cəhd göstərirdilər. Bu ədəbiyyatın nümayəndələri klassisizm, romantizm, realizm cərəyanlarının davamçıları kimi çıxış edirdilər. Tənzimat ədəbiyyatı dövründə ən populyar ədəbi cərəyan romantizm cərəyanı olmuşdu (Xəndan, 2002: 14).

## QAYNAQLAR:


1. Abıyev, A. (1978). *Ömər Seyfəddinin həyatı və yaradıcılığı.* Bakı: Elm.
2. Abıyev, A. (2011). *Tənzimat dövrü Türkiyə ədəbiyyatı.* Bakı: Azərnəşr.
3. Abıyev, A. (2005). *Türkiyə ədəbiyyatı tarixi.* 3 cilddə, I cild. Bakı: Tural.
4. Abıyev, A. (2007). *Türkiyə ədəbiyyatı tarixi.* 3 cilddə, II cild (I hissə). Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı.
5. Abıyev, A. (2007). *Türkiyə ədəbiyyatı tarixi*. 3 cilddə, II cild (II hissə). Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı.
6. Alışanov, Ş. (2010). *Ədəbi-bədii düşüncənin sərhədləri.* Bakı: Sabah.
7. Araslı, N. (1980). *Nizami və türk ədəbiyyatı.* Bakı: Elm.
8. Babayev, A. (2016). *Nazim Hikmət qalaktikası.* Bakı: Elm və təhsil.
9. Babayeva, E. (2013). *Nəcib Fazil Qısakürəyin yaradıcılıq yolu.* Bakı: Elm və təhsil.
10. Bayat, F. (2011). *Türk təkkə (təsəvvüf) ədəbiyyatı.* Bakı: Elm və təhsil.
11. Bəydilli, C. (2010). Cümhuriyyətdən sonra Türkiyədə ədəbi cərəyanlar. *Şərq filologiyası məsələləri, № 5*, 447-462.
12. Cəfərov, N. (2004). *Qədim türk ədəbiyyatı.* Bakı: AzAtaM.
13. Cəfərov, N. (2006). *Türk xalqları ədəbiyyatı.* 4 cilddə, I cild. Bakı: Çaşıoğlu, AzAtaM.
14. Dursunova, F. (2007). *Ömər Seyfəddinin poetikası* [Fil. elm. namiz. dis. avtoreferatı]. Bakı.
15. Qasımlı, N. (2005). *Orxan Seyfi Orxonun lirikası*. Bakı: Adiloğlu nəşriyyatı.

16. Əhmədov, B. (2015). *XX yüzil Azərbaycan ədəbiyyatı, mərhələlər, istiqamətlər, problemlər.* Bakı: Elm və təhsil.
17. Əhmədov, Ə. (1965). *Rəşad Nurinin romanları.* Bakı: Azərnəşr.
18. Gündoğdu, S. (2012). *Mehmet Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü.* Bakı: R.M. Kompani.
19. Kərimova (Faiqqızı), L. (2014). *Milli istiqlal şairi Mehmet Akif Ersoy.* Bakı: Elm və Təhsil.
20. Hümmətova, X. (2012). *Yunus Əmrə.* Bakı: Elm və təhsil.
21. Xəndan, A. (2002). *Yəhya Kamal Bəyatlı yaradıcılığının sənətkarlıq xüsusiyyətləri.* Bakı: Nurlan.
22. Алькаева, Л.О. (1959). *Очерки по истории турецкой литературы (1908-1939 гг).* Москва: АН СССР.
23. Ахмедов, Р. и Рзаева Р. (2001). *Пути развития турецкой литературы.* Баку: Нафта- Пресс.
24. Маштакова, Е.И. (1984). *Турецкая литература конца XVII – начала XIX в.* Москва: Наука.

## Transition from old to new and literary currents in Turkish literature at the end of the 19th century and early 20th century

**AYDAN KHANDAN**[**]

### Abstract

*The historical-chronological boundaries of the period analyzed in the article cover a period of approximately thirty to forty years of written Turkish literature, which is more than a thousand years old. This period, which seems quite short at first glance, is considered the most complex and fateful stage of Turkish socio-political life as a whole, and is also an extremely rich stage in terms of artistic method, literary movement, artistic style, literary school, tendencies and groups in terms of Turkish literature, including Turkish poetry. It is no coincidence that this period of time is considered the transition stage of Turkish prose and poetry from the old to the new, as well as the period when national literature was formed as a whole. Studies show that this period is generally a period of mutual influence, as well as serious competition and struggle in terms of origins and sources, internal resources and external influences, relations between literary movements, tendencies, groups and schools. The historical period in question is also a stage in which there was a rapid integration and transformation of tradition and modernism, of classical Eastern poetics and a new type of Western aesthetics.*

**Keywords:** *poetry, literature, romanticism, parnassism, literary process*

[**] Doctor of Philosophy in Philology, Associate Professor; Baku State University, Faculty of Oriental Studies; aydan.xandan@bsu.edu.az

# Переход от старого к новому и литературные тенденции в турецкой литературе конца XIX и начала XX веков

**АЙДАН ХАНДАН*****

**Резюме**

*Историко-хронологические границы анализируемого в статье периода охватывают примерно тридцать-сорок лет письменной турецкой литературы, насчитывающей более тысячи лет. Этот период, на первый взгляд кажущийся довольно коротким, считается наиболее сложным и судьбоносным этапом турецкой социально-политической жизни в целом, а также чрезвычайно богатым с точки зрения художественных методов, литературных движений, художественных стилей, литературных школ, тенденций и групп в турецкой литературе, включая турецкую поэзию. Неслучайно этот период считается переходным этапом турецкой прозы и поэзии от старого к новому, а также периодом формирования национальной литературы в целом. Исследования показывают, что этот период в целом является периодом взаимного влияния, а также серьезной конкуренции и борьбы в плане происхождения и источников, внутренних ресурсов и внешних влияний, взаимоотношений между литературными движениями, тенденциями, группами и школами. Рассматриваемый исторический период также является этапом быстрой интеграции и трансформации традиции и модернизма, классической восточной поэтики и нового типа западной эстетики.*

**Ключевые слова:** *поэзия, литература, романтизм, парнасизм, литературный процесс*

| | |
|---|---|
| **Redaksiyaya daxil olma tarixi:** | **17.02.2025** |
| **Çapa qəbul tarixi:** | **21.04.2025** |
| **Çap olunma tarixi:** | **28.10.2025** |

*** Кандидат филологических наук, доцент; Бакинский Государственный Университет, Факультет востоковедения; aydan.xandan@bsu.edu.az